# Əsgər, qəhrəman, dövlət xadimi

## *Sovet İttifaqı Qəhrəmanı, polis general-mayoru Xəlil Məmmədovun əziz xatirəsinə*

**Hər il bütün tərəqqipərvər bəşəriyyət may ayının 9-nu alman faşizmi üzərində Qələbənin ildönümü kimi qeyd edir. İkinci Dünya Müharibəsinin əsas ağırlığını öz çiyinlərində daşıyan keçmiş SSRİ-nin respublikaları arasında Azərbaycan xalqının öz yeri, iştirakı vardır. Qələbənin təmin edilməsi üçün Azərbaycan sovet hərbi texnikasını yanacaqla təmin etmiş, qızıl orduya hər cür yardım göstərmişdir.**

Faşizimlə ölüm-dirim müharibəsinə 700 min nəfərdən çox azərbaycanlı səfərbər olunmuşdur. Onların 300 min nəfərdən çoxu cəbhədə həlak olmuşdur. Soydaşlarımız cəbhədə əfsanəvi qəhrəmanlıqlar göstərərək ölkəmizin adını qızıl hərflərlə İkinci Dünya Müharibəsinin tarixinə həkk ediblər.

Böyük Vətən Müharibəsində Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş on bir min nəfərdən çox döyüşçü arasında 100-ə yaxın azərbaycanlı da vardır. Adları sovet hərb tarixində əbədiləşən Həzi Aslanov, Aslan Vəzirov, Səlahəddin Kazımov kimi qəhrəmanlarla yanaşı, bu günlərdə anadan olmasının 100 illiyini qeyd etdiyimiz Sovet İttifaqı Qəhrəmanı, polis general-mayoru, 1941-1945-ci illər müharibəsində tanklarla, düşmənin "müdafiə xəttini yaran usta" ləqəbi ilə tanınan Xəlil Məmmədovun da adı şərəflə çəkilir.

Xəlil Məmmədov 1916-ci il may ayının 5-də Azərbaycanın dilbər guşəsi Şuşa şəhərində papaqçı Məmməd kişinin evində həyata göz açmışdır. Atası Məmməd kişi Xəlili lap uşaq yaşlarından balaca emalatxanasına aparıb öyrədir, sənətinin oğlu tərəfindən davam etməsini istəyirdi. Ancaq təbiətən romantik, çılğın, hərəkətlərində qətiyyətli, özünə güvənən Xəlil atasının bu arzusunu həyata keçirməkdə çətinlik çəkirdi.

1920-ci ilin sonlarında balaca Xəlil ailəsi ilə birlikdə Türkmənistanın Aşqabad şəhərinə köçür. O, burada orta məktəbi və Sənaye texnikumunu bitirir. İlk əmək fəaliyyətinə Qızıl Arvat şəhərində vaqon təmiri zavodunda mühəndis-konstruktur kimi başlayır, əməksevərliyi ilə hörmət qazanır.

Taleyin hökmü ilə 1930-cu illərin sonlarında Xəlil ailəsi ilə doğma Şuşaya qayıdır. O, 1939-cu ildə Şuşa hərbi komissarlığından orduya xidmətə çağrılır. Xəlilin təhsilini, bacarığını nəzərə alaraq hərbi hissə komandiri onu Tbilisi şəhərinə kiçik komandirlər hazırlayan tədris mərkəzinə oxumağa göndərir. Bu elə dövr idi ki, faşizim taunu artıq Avropa ölkələrini bürümüşdü. Sovetlər İttifaqında da təhlükəni hiss edirdilər. 1940-ci ilin əvvəllərində kiçik komandirlər hazırlayan məktəbin növbədənkənar buraxılışı olur. Xəlil tank komandiri təyin edilir.

22 iyun 1941-ci ildə alman faşistləri Sovetlər ölkəsinə hücuma keçirlər. Müharibənin ilk günləri olduqca ağır idi. Xəlilin xidmət etdiyi tank batalyonu onların cəbhəyə nə vaxt göndəriləcəyini gözləyirdi. Ancaq faşist Almaniyası kəşfiyyatının İranda törətdiyi təxribatlar Sovet rəhbərliyini çox narahat edirdi.

1921-ci ildə Sovet hökuməti ilə İran arasında bağlanmış müqavilənin şərtlərinə görə, 25 avqust 1941-ci ildə Sovet qoşunları cənub sərhədlərində öz təhlükəsliyini təmin etmək üçün İran ərazisinə daxil oldu. Həmin gün 77-ci atıcı diviziyanın tərkibində Xəlil Məmmədov da birinci olaraq İran sərhədini keçənlər arasında idi.

Cəbhədə isə vəziyyət gündən-günə ağırlaşırdı. Alman faşistləri bir neçə istiqamətdə Sovet ərazisinin dərinliklərinə irəliləyirdilər. Faşistlərin əsas zərbə istiqamətlərindən biri də Şimali Qafqazı və Bakını işğal edib Sovet ordusunu yanacaqdan məhrum etmək idi.

İrandakı vəziyyət bir qədər yaxşılaşdıqdan sonra Xəlil Məmmədovun tank batalyonunu döyüşən cəbhəyə qaytardılar. 1941-ci ilin dekabrında Xəlil Məmmədovun tank batalyonu da 44-cü ordunun tərkibində dəniz piyadaları ilə birlikdə mühüm strateji əhəmiyyətə malik olan Feodesiya şəhərinin almanlardan azad olunması üçün ölüm-dirim savaşına qatıldı. Gənc Xəlil burda ilk dəfə ölümlə üz-üzə dayandı. Dekabrın axırlarında Sovet qoşunları düşmənin müdafiə xəttini yarıb şəhərə daxil oldu. Xəlil Məmmədovun tankçıları bu döyüşlərdə böyük rəşadət göstərdilər. Onlar düşmənin bir neçə tankını, artilleriya batareyalarını, zirehli maşınlarını sıradan çıxardılar. Yüzlərlə faşist əsgər və zabitini məhv etdilər.

Bu döyüşlərdə Xəlil Məmmədov həm yaralandı, həm də ilk əsgəri mükafatına, "Qızıl Ulduz" ordeninə layiq görüldü. Qəhrəmanın oğlu Məmməd Məmmədov bildirir ki, bu döyüş atam üçün həm də böyük sevinc günü kimi yadda qalmışdır. O, başqa hərbi hissədə vuruşan qardaşı Rəfini təsadüfən bu döyüşlərdə tapdı.

Xəlil Məmmədovun maraqlı döyüş səhnələrindən biri də 1943-cü ilin oktyabrında Zaporojye şəhərinin almanlardan azad olunmasıdır. General-leytenant Puşkinin komandanı olduğu 23-cü tank korpusunun tərkibində vuruşan Xəlil Məmmədovun komandir olduğu tank batalyonunun qarşısında digər hərbi hissələrlə birlikdə gecə gözlənilmədən hücüm etmək, düşmənin mühasirəsini yararaq hitlerçiləri şəhərdən kənara atmaq vəzifəsi qoyulmuşdu.

Gözlənilmədən başlanan hücum almanlar arasında böyük çaşqınlıq yaratdı. Xəlil Məmmədovun tankçıları qəflətən mühasirəni yararaq piyadalarmıza yol açdı, almanlar çoxlu itki verdilər. Yaralılarını və döyüş texnikalarını ataraq şəhəri tərk etməyə başladılar. Bu əməliyyatda göstərdiyi şəxsi igidliyə görə Xəlil Məmmədov "Aleksandır Nevski" ordeninə layiq görüldü.

Sovet ordusu almanların işğal etdiyi şəhərləri və kəndləri bir-birinin ardınca azad edirdi. Qələbə gününün yaxınlığı hiss olunurdu. Xəlil Məmmədovun xidmət etdiyi 23-cü tank korpusunun döyüşçüləri də Avropa ölkələrini faşistlərdən təmizləyirdilər.

Sovet qoşunları Macarıstanın, Ruminiyanın, Polşanın, Avstriyanın şəhər və kəndlərindən almanları qovurdular. Almanlar böyük strateji əhəmiyyətə malik olan Macarıstanın Merkuriya-Çuk şəhərinin ətrafında və şəhər daxilində möhkəm müdafiə sədləri yaratmışdılar. Sovet qoşunları tərəfindən bu müdafiə səddinin yarılmasına göstərilən bir neçə cəhd nəticəsiz qalmışdı. Komandanlıq qərar qəbul etdi ki, müdafiə xəttini yarmaq üçün xüsusi çevik zərbə dəstələri yaradılsın.

Belə zərbə dəstələrinin birinə də Xəlil Məmmədovun başçılıq etdiyi tank batalyonu daxil edildi. Döyüşlərin gedişinə şəxsən 2-ci Ukrayna cəbhəsinin komandanı Sovet İttifaqı Marşal A.Vasilevski və 23-cü tank korpusunun komandiri general-leytenant Y.Puşkin nəzarət edirdilər.

1944-cü il oktyabrın 14-də başlanan hücum əməliyyatında Xəlil Məmmədovun tankçıları böyük qəhrəmanlıqlar göstərdilər. Onlar gözlənilmədən almanlara arxadan zərbə vuraraq qoşunlarımızın irəliləməsinə dəhliz yaratdılar. Merkuriya-Çuk şəhərinin azad olunmasında Xəlil Məmmədovun tankçıları düşmənin 200-dən çox avtomaşınını, 6 tankını, hərbi ləvazimatla dolu 5 eşalonunu, 1000 nəfərdən çox əsgər və zabitini məhv etdilər. Yüzlərlə döyüş texnikasını ələ keçirdilər, beş mindən çox əsgər və zabitini əsir götürdülər.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 mart 1945-ci il tarixli fərmanı ilə Xəlil Məmmədov Merkuriya-Çuk şəhərinin almanlardan azad olunmasındakı döyüşlərdə göstərdiyi şəxsi şücaiət və igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Xəlil Məmmədov ona Sovet İttifaqı Qəhrəmanı adının verilməsi xəbərini Avstriyada vuruşarkən aldı. Maraqlı fakt odur ki, bu şəhərin azad olunmasında göstərdikləri qəhrəmanlığa görə 23-cü tank korpusunun daha 3 döyüşçüsünə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

12 dəfə Ali Baş Komandanın şəxsi təşəkkürünə layiq görülmüş Xəlil Məmmədovun cəbhə yoldaşı mayor Opolovin ordu qəzetində yazırdı: "Deyirlər ki, Xəlil xoşbəxt adamdır. O döyüşdə xoşbəxtliyi öz əli ilə götürür. Bu, heç də belə deyildir. Cəbhədə xoşbəxtlik bilikdən, təcrübədən və cəsarətdən qurulur. Xəlil də belə adamlardandır".

Xəlil Məmmədov 9 may Qələbə xəbərini Çexoslovakiya torpağında aldı. 1946-cı ildə ordudan tərxis olunan Xəlil Məmmədov doğma Azərbaycanına qayıtdı. Gənc zabitin müharibədə qazandığı idarəetmə təcrübəsi, insanlara diqqət və qayğısı dinc quruculuq illərində də onun həyat amalına çevrildi.

Yenicə tərxis olunan gənc zabit Bakı şəhəri Əzizbəyov rayon partiya komitəsində, Bakı şəhər partiya komitəsində, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində məsul işlərdə işləyirdi. 1956-cı ildə Bakı Ali Partiya Məktəbini bitirəndən sonra Xəlil Məmmədovun həyatında yeni dövr başlayır. 1957-ci ildə respublika daxili işlər nazirinin müavini, 1960-cı ildən 1965-ci ilə kimi daxili işlər naziri vəzifəsində işləyən X.Məmmədov respublikada ictimai asayişin qorunması, şəxsi heyət arasında nizam-intizamın və peşə hazırlığının yüksəldilməsi, vətəndaşların hüquqlarının qorunması sahəsində böyük işlər görmüşdür.

General-mayor Xəlil Məmmədov daxili işlər orqanlarında vətəninə, xalqına sədaqətlə xidmət edən zabit korpusunun yaradılmasına böyük əmək sərf etmişdir. Özünün kristal təmizliyi, sadəliyi, yüksək intellektual mədəniyyəti və ciddi davranışı ilə həmişə şəxsi heyətə nümunə olmuşdur. Onun çoxlu yetirmələri bu gün təqaüddə olsalar da, Xəlil Məmmədovu böyük hörmət və ləyaqətlə yad edir, onun sözün əsl mənasında vətənpərvər vətəndaş olmasından danışırlar.

Uzun illər Daxili İşlər Nazirliyində qərargah rəisi və nazir müavini işləyən Müseyib İlyasov Xəlil Məmmədovu belə xatırlayır: "1957-ci ildə Xəlil Məmmədovu nazir müavini təyin edəndə narahatlıq hissləri keçirirdik. Müharibəni keçən adamlar adətən təbiətcə sərt olurlar, Xəlil Məmmədov isə böyük təmkinə, insanları axıra kimi dinləməyə qadir idi. Onunla söhbət edəndə heç inanmırdın ki, həmsöhbətin dörd il cəbhədə almanları vahiməyə salan tankçı, Sovet İttifaqı Qəhrəmanıdır.

Xəlil Məmmədov nazir işləyən müddətdə şəxsi heyətin qayğısına qalırdı. Həm Bakıda, həm də rayonlarda yüzlərlə əməkdaşlar evlə, torpaqla təmin olunurdular. Qayğıkeş olduğu qədər də həm özünə, həm də tabeliyindəkilərə qarşı tələbkar idi. Onun bir insan kimi ən yüksək keyfiyyəti bağışlamaq fəlsəfəsi idi.

Xatirimdədir, Xaçmazda rəis işləyirdim, təxminən gecə saat 1 radələrində nazirliyin növbətçisi mənə zəng etdi ki, nazir sizinlə danışmaq istəyir. Əməliyyat şəraitini məruzə edəndən sonra mənə bildirdi ki, Müseyib, cavan rəissən, göstəricilərin də yaxşıdır, amma şəxsi heyətə tələbkarlıq göstərmirsiz. Sənin müstəntiqin Bakıda dəmir yol vağzalında vətəndaşa qarşı kobudluq edib, onu tərbiyələndirin. Xəlil Məmmədov kollegiyalara çox ciddi hazırlaşırdı. Əməliyyat şəraiti ilə yerlərdə tanış olmaq üçün gecə vaxtı gözlənilmədən rayon polis şöbələrini şəxsən özü yoxlayırdı və nöqsanları aradan qaldırırdı.



Daxili işlər orqanlarında uzun illər polis rəisi işləyən, ehtiyatda olan polkovnik Məhi Quliyev deyir ki, Xəlil Məmmədovla bir vaxtda 1957-ci ildə daxili işlər orqanlarında işləməyə başlamışdıq. 1957-ci ildə Mərkəzi Komitədə işləyən Xəlil Məmmədovu respublika daxili işlər nazirinin birinci müavini təyin etmişdilər. O vaxt lap gənc idim, 27 yaşım vardı. Məni Jdanov rayonuna (indiki Beyləqan) polis rəisi göndərirdilər, mən tərəddüd edirdim. Xəlil Məmmədov söhbət zamanı mənə bildirdi ki, biz indi ən çox gənclərə ümid edirik. Çəkinmək, qorxmaq lazım deyil. Sənə hər cür köməklik edərik. Xəlil Məmmədov uzun illər daxili işlər naziri vəzifəsində işlədi. Mən indi də o böyük şəxsiyyəti hörmətlə xatırlayıram.

Xəlil Məmmədov əsl el adamı idi. Müharibənin odundan-alovundan çıxdığına, böyük şöhrət sahibi olmasına baxmayaraq, onun qəbuluna gələn vətəndaşları, nazirliyin əməkdaşlarını diqqətlə dinləyib onlara köməklik göstərirdi. Xəlil Məmmədov çox təvazökar və təmiz rəhbər idi. Mən indiyə qədər onun təmizliyinə ləkə salan bir söhbət eşitməmişəm.

1965-ci ildə daxili işlər naziri vəzifəsindən səhhətinə görə öz xahişi ilə çıxan Xəlil Məmmədova Azərbaycan hökuməti daha bir məsul iş tapşırdı. O, respublika Bədən Tərbiyəsi və İdman Komitəsinə sədr təyin olunur. X.Məmmədov Azərbaycanda gənclər arasında idmanın populyarlaşmasına, onların mənəvi və fiziki cəhətdən əsl vətənpərvər kimi tərbiyə edilməsinə böyük əmək sərf edir. Nəticədə Azərbaycan idmançıları Ümumittifaq və beynəlxalq yarışlarda mühüm qələbələr əldə edirlər.

Sonralar Azərbaycan Respublikası Nazirlər Kabinetində inzibati orqanlar şöbəsinin müdiri vəzifəsində çalışan Xəlil Məmmədov özünün bütün bilik və bacarığını ölkədə qanunvericiliyin möhkəmlənməsinə, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşməsinə, xüsusilə xalqına, dövlətçiliyə vicdanla xidmət edən kadrların hazırlanmasına həsr etmişdir.

Büyük Vətən Müharibəsinin iştirakçısı Xəlil Məmmədov respublikada gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində də böyük işlər görmüşdür. O, alman faşizmi üzərindəki qələbənin əldə edilməsində Azərbaycan xalqının oğul və qızlarının müharibə səngərlərində və arxa cəbhədə göstərdikləri qəhrəmanlıqlardan böyük həvəslə danışırdı. Gənlər veteranla görüşləri böyük səbirsizliklə gözləyirdilər.

Görkəmli dövlət xadimi Xəlil Məmmədov respublikanın ictimai-siyasi həyatında da fəal iştirak etmişdir. IV-VIII çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü olmuşdur. Qeyd etmək lazımdır ki, ümummilli liderimiz Heydər Əliyev ona böyük ethiram və hörmətlə yanaşmışdır. Xəlil Məmmədov 1989-cu ilin fevral ayında dünyasını dəyişmişdir. Bəlkə də taleyin qismətdir ki, o, doğulduğu, boya-başa çatdığı Şuşanın erməni işğalında olduğunu görmədi. Ancaq bu gün qəhrəmanın ruhu üçün ən böyük sevinc Qarabağın ermənilərdən azad edilməsi olardı.

Xəlil Məmmədov həm də xoşbəxt ailə başçısı olmuşdur. 3 övladı, 4 nəvəsi, 3 nəticəsi vardır. Oğlanlarından Məmməd və Fəxrəddin daxili işlər orqanlarında onun yolunu davam etdirmişlər. Ailənin sonbeşiyi olan Elxan isə bəstəkardır. Hazırda Şuşa haqqında yeni mahnı bəstələyir. Ən böyük arzusu gələn il bu mahnını Cıdır düzündə, Şuşada ifa olunmasıdır, qəlbən biz də Elxanın bu arzusuna qoşuluruq.

Bu gün Xəlil Məmmədovun həyatı bütün Azərbaycan gəncliyinə örnək olmalıdır. Türkmənistanın Qızıl Arvat şəhərində Xəlil Məmmədovun adına küçə və orta məktəb vardır. Çox istərdik ki, xalqımızın fəxr etdiyi oğullarından biri olan Xəlil Məmmədovun adı Azərbaycanda da əbədiləşdirilsin. Bu, hazırda əsgərlərimizin erməni faşistləri ilə üz-üzə durduqları vaxtda həm də gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rol oynayardı.

Yəqin ki, Bakı Şəhər İcra Hakimiyyəti, Təhsil, İdman və Gənclər, Daxili İşlər nazirlikləri bütün Avropanın faşizimdən azad edilməsində xidməti olan, düşməni vahiməyə salan Azərbaycan xalqının bu ləyaqətli oğlunun xatirəsini əbədiləşdirmək üçün müvafiq addımlar atacaqlar. Bu, qəhrəmanımızın—Qarabağ Qartalının qarşıdakı 100 illik yubileyinə böyük ehtiram olardı.

**Cabir KAZIMOV,**
**Silahlı Quvvələr veteranı, Respublika Veteranlar Təşkilatının şöbə müdiri.**